

# İlham Əliyevin ədaləti

## Qafqazda sülhün və inkişafın təminatçısıdır

**""Xocalıya ədalət!" tələbimiz tam haqlı idi. Bu ədaləti döyüş meydanında təmin etməyimiz beynəlxalq hüquqa və tarixi ədalətə tam uyğundur. Biz tarixi ədaləti bərpa etmişik".**

26 fevral Xocalı soyqırımı günündə Prezident İlham Əliyevin Xocalıdan dünyaya bəyan etdiyi kimi, Azərbaycan xalqı olaraq ürəyimizdə alışan intiqam alovunun üzərinə su çiləndiyi, narahat ruhlarımızın dinclik tapdığı müqəddəs anlar yaşayırıq. Onilliklərdir qəlbimizdə dağa, dilimizdə ağıya, gözümüzdə yaşa çevrilən Xocalının azadlığının, qaniçən erməni quldurları tərəfindən qətl edilən xocalılıların qisaslarının alınmasının təsvirəgəlməz duyğuları içərisindəyik...

Bu il fevralın 26-da ilk dəfə Xocalı soyqırımı gününü Xocalıda qeyd etməyimiz, doğma evlərindən didərgin düşən xocalılıların 32 ildən sonra öz yurdlarına nisgilqarışıq sevinc göz yaşları içərisində qayıdışlarına şahidliyimiz isə milli qürurumuz oldu...

### Xocalıya qayıdış inamı və əminliyi

Ötən bir qərinəlik zamanda 26 fevral günündə yaşanan müsibətlərə görə acı-acı hönkürdük, qəddarlıqla öldürülən insanlarımızın taleyinə ağladıq. Övladları gözləri önündə tikə-tikə doğranan xocalılılara, ata-analarını itirən Xocalının bağrı qanlı körpələrinə, uşaqlarına təsəlli verməyə söz tapmadıq. Dərddən havalanan, qol götürüb saçlarını yola-yola oynayan anaların halı qəlbimizi param-parça etdi...

Xocalı qan yaddaşımıza, milli qisas rəmzimizə çevrildi...

→ 6

# İlham Əliyevin ədaləti

## Qafqazda sülhün və inkişafın təminatçısıdır

Əvvəli 1-ci səh.

Onilliklər boyu 26 fevral Xocalı soyqırımı tarixini Xocalının Bakıdakı daşlaşmış əksi olan "Ana harayı" abidəsini, Şəhidlər xiyabanını, bölgələrimizdəki şəhid məzarlıqlarını ziyarət edərək andıq. Bu müqəddəs məkanlarda özümüzə müqəddəs bir söz verdik, bir gün mütləq erməni qatillərindən intiqamımızı alacağımızın, Yer üzündən silinən ailələrin, süngülənən körpələrin, başı kəsilən uşaqların, təhqir olunan, diri-diri yandırılan, basdırılan qadınların, qocaların qisasını qiyamətə qoymayacağımızın müqəddəs andını içdik.

Elə qəlbimizdə alışan qisas, qəzəb alovu ilə də 2020-ci il 44 günlük Vətən müharibəsində düşmənin külünü göyə sovuraraq Zəfər çaldıq, 2023-cü ildə Qarabağda cəmi 23 saata erməni quldurlarının yuvasını darmadağın etdik. Əliyalın insanlarımızın qatilinə çevrilən qaniçən ermənilərdən intiqamımızı alaraq, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, erməni faşizminin qurbanı olan günahsız mülki vətəndaşlarımızın ruhlarını şad etdik.

2024-cü il fevralın 26-da Qalib Lider İlham Əliyev tərəfindən Xocalı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün Xocalıda Memorial Kompleksin təməlinin qoyulması isə şəhidlərimizin ruhuna böyük ehtiramın daha bir təcəssümü oldu.

"Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdi. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım" - deyə Xocalı sakinləri ilə görüşü zamanı çıxışında Prezident İlham Əliyev kövrək duyğularını ifadə edərək söylədi ki,  sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq.

### "Xocalı azad olunmadan biz sakitləşə bilməzdik"

2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində uşaq qatili Serj Sarkisyan Xocalıdakı qanlı əməlləri nə üçün törətdiklərini iyrəncliklə etiraf etmiş, jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına belə bir murdar cavab vermişdi: "Heç bir peşmanlığım yoxdur".

Sonradan Serjin qaniçən davamçısı Arayik Harutyunyan da azərbaycanlılara qarşı törətdikləri qatil əməllərini qürrələnərək açıq şəkildə etiraf edirdi...

Uşaq qatilləri Serj və Arayikin timsalında erməni faşizminin qanlı simaları iyrənc əməllərinin qisasının heç zaman alınmayacağının arxayınlığına qapılaraq elə düşünürdülər ki, Azərbaycan torpaqlarının işğalı, etnik təmizləmə ilə barışacaq, xalqımıza qarşı soyqırımları törədən qatilləri cəzasız qoyacaq.

Ancaq 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımız azadlığına qovuşduruldu. Üzərindən üç il keçdikdən sonra isə 23 saatlıq antiterror tədbirləri ilə suverenliyimiz tam təmin edildi, Xankəndidə, Xocalıda və Ağdərədə, Əsgəranda üçrəngli bayrağımız dalğalandırıldı.

Xocalının doğma sakinləri ilə görüşündə İlham Əliyev də bu qürurlu məqamla bağlı bildirdi ki, biz Xocalısız ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunduğunu hesab edə bilməzdik: "Xocalının Azərbaycan xalqının tarixində və şüurunda o qədər böyük yeri var ki, bu faciə qəlbimizdə o qədər böyük yaralar salıb ki, Xocalı azad olunmadan biz sakitləşə bilməzdik".

### Uşaq qatillərinin ən dəhşətli cəzası

Həm İkinci Qarabağ müharibəsi, həm antiterror tədbirləri zamanı erməni cinayətkarlarından intiqamımız alındı və onlar məhv edildi. Biz Vətən uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın qisasını döyüş meydanında aldıq.

Həmçinin vaxtilə Xocalıda, Qaradağlıda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və digər ərazilərimizdə xalqımıza qarşı soyqırımı törədən erməni qatilləri başıaşağı, əliqandallı vəziyyətdə Bakıya gətirilərək qanlı əməllərinin hesabını vermək üçün ədalət mühakiməsinə çıxarıldılar.

Təcavüzkar Ermənistandan fərqli olaraq dinc əhali ilə heç vaxt müharibə aparmaması, mülki insanlara toxunmaması isə Azərbaycan xalqının böyüklüyünü bir daha dünyaya nümayiş etdirdi.

Bu gün Azərbaycan işğaldan azad etdiyi torpaqlarında nəhəng tikinti-quruculuq işləri aparır, didərgin salınan insanlarını yurdlarına qovuşdurur. Bu yaxınlarda Xocalı sakinləri də Xocalıya dönüb burada yeni həyata başlayacaqlar.

İlahi ədalətin təzahürü olan bütün bu işləri gözləri ilə görmələri isə xalqımıza qarşı cinayət əməlləri törədən erməni faşistlərinə, uşaq qatillərinə, separatçılara dünyadakı ən dəhşətli cəzadır...

Bir sözlə, Azərbaycan haqq-ədaləti öz gücünə təmin edib və ölkəmizin qazandığı parlaq zəfərlərin nuru onilliklərdir erməni separatizminin qaranlığa bürüdüyü bölgəni də işıqlığa çıxarıb.

Prezident İlham Əliyevin yürütdüyü müdrik və qətiyyətli siyasət sayəsində, nəhayət, Cənubi Qafqazda sülhə və inkişafa da tarixi şərait yaranıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***